Ədəbiyyat qəzeti

HEKAYƏ



Günel EYVAZLI

# Katarsis

## Təmizlənmə

*Çarın qeyzindən qorxan insanlar gənc birisinin tonqalda yanmasına heyifslənsələr də, - can şirin şeydir - deyib səslərini çıxarmırdılar.*

**Haumata - Hukta - Hvaraşta**
**Əlif, Lam, Ra!**

Nəm həbsxana divarları arasında ciyərləri ağrıyırdı. Cansıxıcı hava nəfəs almağa imkan vermir, ara-sıra gələn öskürək səsləri mürgüləməkdən xilas edirdi onu. Əllərini ovuşdurub sonra barmağını dili ilə yaşlayan məhbus kitabın növbəti səhifəsini açır.

Uzun illər axtarışda olub sonra tutulan qatı cinayətkar törətdiyi əməllərin cəzasını çəkirdi, əslində. Ömürlük həbs. Edam cəzası ləğv olunan bu ölkədə qalan ömrünü daş divarlar arasında keçirmək diri-diri torpağa gömülməkdən başqa bir şey deyildi. Deyiləcək bir sözü də yox idi. Məhkəmə salonunda üzünə çırpılan bütün cinayətləri boynuna almışdı. Jurnalistlərin yersiz sualları onu bezdirsə də, dözməyə və susmağa qərar vermişdi.

Hər gün bir səhifə oxuyardı. Əslində qoca anasının gətirdiyi kitabı qulaq batıran sükutun, darıxdırıcı ab-havanın bezginliyindən vərəqləyərdi. Hər şeyə alışmışdı. Səhər sübhdən barmaqlıqlara toxunan keşikçi dubinkası belə əvvəlki qədər səksəndirmirdi onu. Sadəcə, boğanaq mühitdən təmiz havaya çıxmağa səbirsizləndirirdi.

Bugünkü səhər də eyni qaydada açıldı. Məhbuslar qarşısına dəmir qablarda atılan və yeyilməsi mümkün olmayan murdar yeməklə. Yeməyi yerdən qaldırıb o yan bu yanına baxdı, sonra qoxladı. Nə düşündüsə onu kənara qoyub günorta yeməyini gözləməyə qərar verdi. Bu günün sevindirici xəbəri, hər üç gündən bir məhbuslara verilən havaya çıxma icazə xəbəri idi. O əynindəki köynəyi düymələyib səbirsizliklə on dəqiqədən sonra qapıların açılmasını gözlədi.

Bədbəxtlikdən havasız məkandan çıxan məhbuslar yağmurlu və buxarlı havanın şahidi oldular. Çoxu yenidən geri - kameralara dönərkən Məhərrəm yerindən tərpənmədi. Duyğusuz gözlərini səmaya zillədi. Bu hərəkəti onun nə dərinliyindən, nə də xəyala dalmasından xəbər verirdi. Əməlləri yuxuda belə onu izləyirdi. Bəzən qorxunc səslə çığıraraq ayılar, bəzən isə eyni yuxunu görməmək üçün yatmazdı.

Kamera yoldaşı vaxtilə əzbərlədiyi cümləni onun qarşısından keçərkən təkrarladı. Başını bir balaca irəli əyib, eşidirsən, səninləyəm, "Platon deyir ki, iki cür təmizlik var: fiziki və psixi təmizlik"!

Məhərrəm qəsdən səmaya boylanmış nəzərlərini aşağı dikmədi. Fikirlərini ağzında pıçıldayaraq, indi dünyanın bütün buludları bax, buraya başımın üstünə yığışsalar, sıxılıb acı göz yaşını töksələr belə məni paklaya bilməzlər, - dedi. Hərdən şairanə danışığı ona anasını xatırladırdı.

Gözlərini səmadan ayırıb tikanlı məftillərlə haşiyələnmiş həbsxana həyətinə baxdı. Məncə bugünlük bəsdir, - deyib, içəri keçdi.

Tarixin o tayında isə İbrahim adlı gənci edam dirəyinə sarıyıblar...

Ur şəhərində edama məhkum olunmuş insanlar haqqında qəribə, gülməli lətifələr qoşulardı. Bir ailə göz yaşı içində olarkən, bir başqaları adətləri üzrə səhər gördükləri mənzərədən heyrətlənər, təxəyyüllərini bir az da işləyib acınacaqlı hadisələrdən gülməli lətifələr uydurardılar.

Deyilənə görə günlərin birində elə İbrahim yaşında olan bir gənci ağaca sarıyırlar. Ocaq qalamazdan öncə şəhərdə adı dillər əzbəri olan bir fahişəni caninin yanına gətirirlər. Üzünə qızıl maska keçirən çar gəncin önünə gələrək, "Hə, mən qəddar olduğum qədər də çox rəhimliyəm, söyləyir. Səni yaratdığım kimi, öldürə də bilərəm. Həm də ölümün ağuşundan ala bilərəm səni. Budur, ulu Sina ruhunu qəbul eləmək üçün qapılarını üzünə açıb. Gördüyün bu fahişə ilə ailə qurarsansa, səni ölümdən xilas edərəm. Azad edərəm gedərsən, - deyir".

Deyilənə görə cani əllərinin açılmasını və alacağı qadına daha yaxından baxmasını xahiş edir. Qadının axsamasını sezən cani belə bir şikəst qadınla evlənməkdənsə ölüm yaxşıdır, - deyir. Toplaşanlar bu cavabın qarşısında daşa dönürlər. Necə yəni, insan bir axsaq xilaskara görə ölümümü seçər? Çar da əlini çənəsinə qoyub yandırın, əmrini verir. Dörd bir yanı atəşlənən cani can yanğısından qışqırıb öləndə, tamaşaya yığışanlar qəhqəhə çəkib gülüşürdülər.

İndi isə onun qarşısına seçim qoyublar. Özünü Allah elan edən çar, hər vəchlə İbrahimin ağzından bəli, sən Allahsan sözlərini eşitmək istəyir. İbrahimin cavabı gecikmir.

- Məni sən yaratmamısan ki, sən də öldürəsən!

Bu sözlərdən qeyzlənən çar hirsindən üzündəki maskanı çıxarıb yerə atır. Onun yaxasından yapışıb, "sən bilirsənmi mən kiməm, bilirsənmi mən kiməm?", - söyləyir. Hiddətlənən çarın surəti qeyzindən daha da qorxunc görkəm alır. Yumruqlarını bərkidib gəncin qarnına zərbələr endirməyə başlayır. Ağzında duaları pıçıldayan İbrahim ayaq üstə dayana bilirdi. Nəmrudun güclü zərbələri dualar önündə zəifləyirdi.

Tarixin o tayında qətliam...

1920-ci ilin küləkli aprel səhəri idi. Şəhər öz əvvəlki əhvalından çoxdan çıxmışdı. Paytaxta soxulan erməni daşnakları və rus ordusu guya xalqın mövcud hakimiyyətə qarşı olan qiyamının qarşısını almaq üçün şəhərə qədəm qoymuşdu. Məhərrəm adəti üzrə yerdə çömbəlib anasının bişirdiyi plovu əlləri ilə yeyir, beş barmağının beşini də yalayırdı. "Hə, vaxtdır" deyib ayağa qalxdı. Tapançasını qurşağında bərkidib qapıdan çıxdı. Küçədə ölən kim, qaçan kim, çığıran kim. Uşaq, qadın səsləri bir-birinə qarışmışdı.

- Qasab, qasab... - Kim isə Məhərrəmi arxadan çağırdı: - Qasab, sani komandir axtarır. Orda maçiddadir.

- Yaxşı, gedirəm.

Qəssab Məhərrəmi biz tərəflərdə yaxşı tanıyırlar. Bu qədər millət qırılandan sonra əslində müsibətlərin içində Sonaxanım nənə kimi tanınan birisinin oğlunun olması hamını dəhşətə gətirmişdi. Yazıq Nərgiz xala erməni dığasının qəbri üstündə Kənanın başının Məhərrəmin əliylə kəsildiyini biləndə daha da ucadan şaxsey getmişdi. Əllərini sinəsinə çırpıb saçlarını yolmuşdu. Deyilənə görə şəhərin dar küçələrində uzun müddət qadın saçları dolaşırdı. Külək onları o yan-bu yana ataraq oyun oynayırdı elə bil. Ya da hamı üçün sadəcə göz dağına çevrilmişdi.

Məhərrəm hər diz çökən oğulun ağzından "La ilahə İllallah"ı almamış boğazını üzərdi. Sonra kənara çəkilib ağzında nə isə mırıldayardı. Hələ utanmaz-utanmaz fit də çalardı. Günün sonunda isə pulunu alıb evinə yollanardı. Anası alınan arzaqlarla əhsan süfrəsi də açardı arada.

Burada isə İbrahim...

Eyni qayda ilə edam dirəyinə sarınıb. Anası lal-dinməz baxırdı oğlunun bu halına. İynə vursaydın, qanı çıxmazdı. Övladının dəhşətli sonluğunu düşündükcə bənizi də qara, boz qəribə bir rəng almışdı. Layiqli övladına layiqli ana olmaq üçün bir az da təmkinli olmağa çalışırdı. O, İbrahimin anası idi.

Çarın qeyzindən qorxan insanlar gənc birisinin tonqalda yanmasına heyifslənsələr də, - can şirin şeydir - deyib səslərini çıxarmırdılar. Həm də yenidən ortaya gətirilən böyük bütü görüncə daha da tir-tir əsib qarşısında diz çökdülər. Bütü İbrahimə yaxınlaşdıran qullar çarın növbəti əmrinə köklənmişdilər.

- İbadətini elə, alçaq!

Ağzı qurumuş İbrahim bir az da cəhd edib dodaqlarını yaşladı. Önünə gətirilən bütün üzünə tüpürərək qəhqəhə çəkib güldü.

"Yandırın!" əmri ikinci dəfə gəldi. Çoxu ikinci əmrdən sonra tövbə edərdi. Doğrudur, belələrinə çar yaxınlaşıb başlarına sığal çəkərdi, amma heç kim atəşdə yanmaq zülmündən xilas ola bilmirdi. Çarın üçüncü əmri taxtına əyləşən zaman verildi. Əlində məşəl tutan qullar samana od vurmağa başladılar.

Bu hadisədən necə lətifə doğacağı məlum deyildi. Bütün şəhər dillərə düşəcək lətifələri eşitmək üçün gecəni gözləyirdi.

Ur tarixçisinin yazdığına görə qullar samana od vuranda qəflətən göy guruldamışdı. Bayaqdan istisi ilə can yandıran günəş buludların arxasına çəkilmiş, leysan elə o dəqiqədə odu söndürmüş, külək isə qalaqlanan samanları kənara səpələmişdi.

**Gözlərini bağla ki, görəsən**
**(Qəzali)**

İbrahimin birdən-birə Allaha tapınması təsadüfi deyildi. El arasında atəşpərəst kimi tanınan müəllimi Əlibillah ömrünün yarısını kitab oxusu ilə keçirmişdi. İbrahimin atasına Azər adını da elə özü vermişdi. Saatlarla su içində, alov içində oturan, nə batmayan, nə də yanmayan Əlibillah tez-tez kənardan ona boylanan İbrahimi görüb sonradan öz yanına çəkərək batin elmlərindən sevimli tələbəsini elmləndirmişdi. Yer üzündə batin elmindən çox az adam xəbərdar idi. Onların da ağızları möhürlənmişdi. Yalnız hərdənbir yazıya bələd insanlar bildiklərini cızma-qara edərdilər. Bəzisi batini kəlmələri şeir kimi qəzələ sıralayar, bəzisi isə cümlələrə qəlizlik verib dini ayinlər, deyimlər arasında gizlədərdilər.

Tarixin o tərəfində qatil Məhərrəm özü-özünə ölüm hökmünü vermişdi. Anaların fəryadı ona rahatlıq vermirdi yuxularında. Qurtulmaq istəyirdi bu dəhşətdən.

Əyləş və ərizəni yaz!

Mən Əhmədov Məhərrəm Sadiq oğlu etdiyim əməllərə görə edam olunmağımı, bədənimi şaqqalamağı, itlərə yem kimi atılmağımı cəza olaraq verməyinizi xahiş edirəm. Ümid edirəm xahişim razılıqla qarşılanacaq.

Nəmrud isə hər gün yeni tonqal qalayardı İbrahim ətrafında...

Hər açılan yeni gündə İbrahim ənənəvi qayda ilə ağaca sarınar və ətrafında od qalanardı. Eyni hadisə dəfələrlə təkrarlanar, samana od vurmamış yağış odu söndürər, samanları isə külək ətrafa səpələyərdi. Olanlardan bezən Nəmrud iri çəlləyə neft tökməyi, İbrahimi isə onun içində saxlamağı əmr edir. Deyilənə görə yeddi gün, yeddi gecə çəlləkdə dayanmadan yanır. Tüstüsü Ur üzərindən qara bulud kimi çəkilmək bilmir. Nəhayət, çəlləyin nefti buxarlanır. İbrahim heç nə olmamış kimi, odun içindən çıxaraq Nəmrudun önünə gəlir. Qəzəbindən partlayan çar içində olan istilikdən tüstülənir. Xalqın gözü qarşısında yanaraq külə dönür.

* * *

Məhərrəmin arzusu yerinə yetirilir. Yanına gələn molla caninin sonuncu istəklərini eşitmək və duaları onunla birlikdə təkrarlamaq istəyir. Məhərrəm əlindəki dini kitabı mollaya uzadaraq, bunu anama verərsiniz, - söyləyir.

- Xahiş edirəm səhifələrə qoyduğum nişanları götürməyin.

- Narahat olma, oğlum.

Tibb bacısı əlindəki məhlulu Məhərrəmə ötürür. Bir neçə dəqiqədən sonra nəfəsi kəsilən Məhərrəm gözlərini tavana dikmiş şəkildə can verir. Onu dediyi kimi, şaqqalamırlar. Adsız qəbirisanlıqda dəfn edirlər. Deyilənə görə dəfn olunduğu gündən bir köpək hər gün qəbri eşər, meyitin tikə-paralarını yeyərdi.

Kitabı Sonaxanım xalaya verməzdən öncə molla caninin işarələdiyi Quran səhifələrini oxumaq istəyir. Duyğusuz bir insanın hansı surə və ayələrdən riqqətə gəldiyini öyrənməyə çalışır.

Sonralar memuarları ilə diqqət çəkən Mirzə Molla imzalı şəxs xatirələrində bu hadisəni belə nəql edir. " Cani Quranı tam bitirməmişdi. İşarələrdən görünür ki, o, meylini bir neçə surəyə salmış və təkrarən onları oxumuşdu. Ömrünün qırx ilini həbsxana divarları arasında keçirən, sonra isə ölümə fərman verən bu insanın qırx il ərzində bu ayələrdən hansı enerjini alması və nədən bu fikrə düşməsi məlum deyildi". Mirzə Molla konkret işarələnmiş ayələrdən kitabında sitatlar da gətirmişdi.

"Həqiqətən, Allah yanında ayların sayı, göyləri və yeri yaratdığı gündən bəri Allahın kitabında on ikidir. Onların dördü (rəcəb, zülqədə, zülhiccə və məhərrəm) haram aylardır. Bu, doğru dindir. (İbrahim və İsmayılın gətirdikləri dinin doğru hesabı və hökmüdür). Ona görə də həmin aylarda özünüzə zülm etməyin. (Ət-Tövbə. 36)".

"(Ya Məhəmməd!) İlk gündən binası təqva üzərində qurulmuş məscid namaz qılmağa daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorunmağı çalışanları) sevər! (Ət-Tövbə. 108)".

Məhərrəm də ömrünün son günlərini ibadətdə keçirərdi. Kamera yoldaşı İbrahim vaxtilə professor adına layiq birisi, öyrəndiklərindən bacardığı qədər ona aşılayardı. Deyilənə görə vaxtilə Batini elmlər haqqında yazdığı kitaba görə həbsə alınmış və haqsızlıq ucbatından ömürlük həbsə məhkum edilmiş bu insanı dəli İbrahim deyə çağırardılar. Bütün günü həbsxana divarları arasında zamanını keçirən professor xahiş etsə belə, qələm-kağızla təmin olunmamış, o isə bildiklərini gah əzbər, gah da divarda cızaraq yanındakı yoldaşlarına öyrətməyə çalışmışdı. Dediyinə görə Məhərrəm daha çox Yunus surəsini sevərdi. Kitabı professora verib, zəhmət olmasa, bunu bir də oxu, deyərdi.

* * *

Əlif, Lam, Ra.

Bunlar hikmətlə dolu kitabın ayələridir!

- Bəs sən intiharın günah olduğunu ona söyləmədinmi?

- Hər kəsin bir taleyi var. Bu kitabə onun alnında yazılıb. Bir kimsə onu dəyişdirə bilməz. Bir yolu həm uzun, həm də kəsə getmək olar. Məhərrəm kəsə yolu seçdi. Onun yaşamağı və ölümü əməllərinin sayəsində müəyyən olundu. Alim Solon da vaxtilə Krezə, sənin əvvəlini görürəm, sonunu görməsəm həqiqətən xoşbəxt olub-olmadığını söyləyə bilmərəm, - demişdi. Nəticədə ağaca sarınıb tonqala atılan hökmdar ölümöncəsi üç dəfə Solon deyə qışqırmışdı. Vaxtilə bu kobud ifadəsinə görə ölkəsindən qovduğu filosofun əslində doğru dediyi ortaya çıxmışdı. İbrahim də önündə diri-diri alışıb-yanan Nəmruda baxaraq, üzünü izdihama çevirir.

- Peyğəmbərmi? Nə demişdi?

- Quran səhifələrində bütöv açıqlama qeyd olunmayıb. Zamanın alimləri baş verənləri vərəqlərə köçürməyi bacarmışlar. Əlibillahın tələbəsi üç dəfə Allah deyərək sözünə giriş vermişdi. Vaxtilə yalnız Sinanın, Serruxun, Farranın, Aranın adına bələd olan insanlar ilk dəfə yeni ad eşidirlər. Allah. Əslində Yaradanın nə cismi, nə də görkəmi haqqında məlum olmadığına baxmayaraq yalnız adlarından bizi xəbərdar etməsi qəribə idi. İbrahimə də bu ad vəhdən gəlmişdi. Deyək ki, kosmosdan. Çəkisizlikdən, ənginlikdən, uzaqlardan.

İbrahim bütün dinlərin atası idi. Həm İslam, həm Xristian, həm də yəhudi dini onu çox yaxşı tanıyırdı. Gözünün qarşısında çarın diri-diri yandığını görən İbrahim budur, nədənsə özünə Yaradan deyən birisi alova qərq oldu, söyləyir. Eyni atəşin içindən mən də gəldim. Eyni atəşin içinə o da getdi!

- Anlat, nədən İbrahim yanmadı?

- Mən yalnız iki cümlə demək istəyirəm. İnsan trans vəziyyətində öz bitki, ruhi və heyvani bədənini idarə edə bilir. Hətta elə idarə edə bilər ki, havaya da qalxa bilər.

- Mən sizin qadağan olunmuş kitabınızı vərəqləmişəm. Doğrusu, bir şey anlamadım.

- Fərqli bir şey yazmamışam, möhtərəm molla. Oxuduqlarımı öz dilimizdə yazmışam. Axı Quran güzgü kimi bütün həqiqətləri açıb göstərir. Nədən bağlı gözlərlə onu oxuyursunuz?

- Nəmrud İbrahimi yuxusunda görmüşdü?

- Bəli, belə hadisələr bəşəriyyətdə çox olub. Yunan mifologiyası da, Krounun nə zamansa övladlarının birisinin taxta keçməsini duyaraq onları udmaq qərarına gəlməsini göstərir. İnsan olduğu məqamı çox sevər. Elə Allah da. Hər kəs öz taxtında möhtəşəmdir.

- Bəs, İbrahim öz taxtında əyləşən Nəmrud üçün niyə qənim oldu?

- Yox, sadəcə inan, - dedi. Təkə inan!

- Bu qədər dərrakəli olduğunuz təqdirdə qatil Məhərrəmi ölümün pəncəsindən nə üçün almadınız?

- O qərar verdi, siz əməl etdiniz.

- Deyilənə görə bir köpək onun istədiyi kimi, hər gün nəşini eşələyir.

- Bilirsinizmi, ağzınızdan çıxardığınız bütün kəlmələr sehrli dua kimidir. Bəlkə ona görə oğuz elində xalqın alqışı alqış, qarğışı isə qarğış idi. O istəyini sözə çevirdi və sözü ölümündən sonra da onu izlədi.

- İnsan ölər adı qalar?

- Bəli, bizdən sonra yenə də söz qalır. Bizdən sonra ad qalır!

**"Vestnik jurnalı"nın 6-cı sayı**

"Professorun məhkəmədə səslən-dirdiyi fikirlər ət ürpəndirirdi. Çar Rusiyasının vərəsəsi Sovet İttifaqı da mövhumat dolu fikirləri sərsəmləmə adlandırır, Allahı isə mif hesab edirdi. Minlərlə fikir adamını qanına bələmiş çar Rusiyası gizli elmi ittifaqlarda insanın şüurunu öyrənmək üçün bilim adamlarının beyinlərini ölən zaman başdan ayırar, onları araşdırardı. Günü bu günə qədər fəaliyyətdə olan elmi mərkəz bütün çabalara baxmayaraq, heç bir real nəticəni ictimaiyyətə təqdim edə bilməmişdi. Onun qan dolu siyasətinin gerçəkləşdirməsində yaxından yardımçı olan yerli hakimiyyət üzvlərinin çoxu isə ölümlərinə özləri fərman vermiş, bəzisi isə beyin pozuntusundan dəlixanaya düşmüşdülər".

* * *

Sonuncu kəlməni divarda cızan professor ömrünün elə də çox qalmadığını gözəl bilirdi. Vaxtilə sağ ayağının altına cızdığı işarəyə sonuncu dəfə göz gəzdirərək rahatlanmış, yerində fərəqət uzanaraq ruhunu Yaradana rahatca, maneə olmadan təhvil vermişdi.

Bu gün də adını qürurla oxuya bilməyəcəyimiz alim haqqında danışmaq mənə çətin idi. Ədəbiyyat onun əslində kim olmasını gizlətmiş, bizlərə bilgi üçün heç nə qoymamışdı. Kameranın sağ tərəfində, professorun yatacağının yanında anlaşılmayan hərflər çox idi. Səlis xətlə yazılmış bir surə isə nəzərimdən qaçmadı. Deyilənə görə bu yazıların üzərini dəfələrlə suvamışdılar. Nədənsə suvaq müqəddəslik dolu bu kəlmələrin üzərində dayanmağı özünə ar bilmişdi. Hər dəfə ovulub tökülərək yazıları bəlli etmişdi. Həm də məhz bu kamerada cəza çəkən məhbuslar, burada qaldıqlarının iyirminci gününün tamamında məlum olmayan səbəblərdən alışıb yanmışdılar.

Yunus surəsinin divarda oxuna bilən iki ayəsini Mirzə Molla ərəb ləhcəsində oxudu. Mən isə yaddaşımdan pozulmayan ayələri özüm də hiss etmədən əzbərləmişdim.

41. Əgər səni yalançı hesab etsələr, de ki: "Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir. Mənim etdiyim əməllərim sizə, sizin etdiyiniz əməllərin mənə heç bir aidiyyəti yoxdur!"

43. Onların içərisində sənə baxanlar da vardır. Bəsirəti olmayan korlara doğru yolu sənmi göstərəcəksən?!

**Qeyd:**

*Keçən sayımızda dərc olunmuş "Ötən ilin ədəbi mənzərəsi: Gözləntilərimiz və reallıqlar" məqaləsində "Katarsis" hekayəsinin müəllifi yanlış olaraq Zeynallı imzası ilə getmişdir. Buna görə Günel Eyvazlıdan və oxuculardan üzr istəyirik.*